AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Azərbaycan Respublikasının
Təhsil Nazirliyinin
1048 saylı 03.10.2014-cü il
tarixli əmri ilə təsdiq edilmişdir

# ALİ TƏHSİL PİLLƏSİNİN DÖVLƏT STANDARTI

# TİBB TƏHSİLİNİN ƏSAS TƏHSİL İXTİSASI ÜZRƏ TƏHSİL PROQRAMI

**İxtisasın (proqramın) şifri və adı: 070101 – Müalicə işi**

**BAKI – 2014**

## 1. Ümumi müddəalar

**1.1.** Tibb təhsilinin **070101 – Müalicə işi** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) Azərbaycan Respublikasının «Təhsil haqqında» Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı»na və «Ali təhsil pilləsində tibb təhsilinin əsas təhsili üzrə ixtisasların təsnifatı»na uyğun hazırlanmışdır.

**1.2.** İxtisas üzrə Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə tibb təhsili hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

**1.3.** Strukturda istifadə olunan işarələr:
**İTP** – İxtisas üzrə Təhsil Proqramı
**ÜK** – ümummədəni kompetensiyalar
**PK** – peşə kompetensiyaları

**1.4. 070101 – Müalicə işi ixtisasının xarakteristikası**
İTP-nin mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ixtisas dərəcəsi:

| **İxtisasın şifri və adı** | **Verilən elmi ixtisas dərəcəsi** | **Əyani forma üzrə təhsil müddəti*** | **Kreditlərin sayı** |
|---|---|---|---|
| 070101 – Müalicə işi | Həkim | 6 il | 360 |

## 2. Məzunun ixtisas xarakteristikası və kompetensiyası

**2.1. Həkimin ixtisas xarakteristikası**
Həkim:
- həkimin fundamental və peşə hazırlığına uyğun olaraq, ixtisası üzrə iş sahələrində peşə fəaliyyətinə, eləcə də ixtisas üzrə rezidenturada təhsil almağa hazır olmalıdır;
- mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq, peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn istənilən tibb müəssisəsində, təşkilatlar, idarələr, birliklərdə və s. işləyə bilməlidir;
- mövcud qaydalara riayət olunmaqla müxtəlif təhsil müəssisələrində (ali təhsil müəssisəsində elmi, elmi-pedaqoji fəaliyyət sahələri istisna olmaqla) çalışa bilməlidir.

**2.2. Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər**

**2.2.1.** Məzun aşağıdakı ümummədəni kompetensiyalara (ÜK) yiyələnməlidir:
- düşünmə, ünsiyyət qurma, informasiyanı qəbul edib analiz etmə, qarşıya məqsəd qoymaq və ona nail olmaq yollarını seçmək qabiliyyətinə malik olmaq bacarığına **(ÜK-1);**
- şifahi və yazılı nitqi aydın, səlis və əsaslandırılmış şəkildə düzgün məntiqlə qurmaq bacarığına **(ÜK-2);**
- öz gələcək peşəsinin sosial əhəmiyyətini başa düşməklə peşə fəaliyyətini yerinə yetirmək üçün ruh yüksəkliyinə **(ÜK-3);**
- sosial və peşə məsələlərinin həllində sosial, humanitar və iqtisadi elmlərin əsas qayda və metodlarından istifadə etmək, sosial əhəmiyyətli problem və prosesləri analiz etmək qabiliyyətinə, sosial davranış formaları və qanunauyğunluqlarına, sosial qruplaşma və topluların yaranma səbəbləri və mənşəyinə, sosial proseslərin növləri və nəticələri haqqında elmi təsəvvürlərə malik olmaq bacarığına **(ÜK-4);**
- vətən tarixinin baza biliklərinə, Azərbaycan cəmiyyətinin inkişafında səbəb -nəticə düşüncəsinə, şəxsiyyətin ümumi mədəniyyətinin və sosiallaşmasının inkişafına səbəb olan fəlsəfə, sosiologiya və iqtisadi nəzəriyyənin əsaslarına, pul-kredit və sosial-investisiya siyasətini, öz ölkəsində və xaricdə baş verən iqtisadi hadisələri təhlil etmək, iqtisadiyyatın cari məsələlərinin həllində istifadə etmək, onları ekologiya sahəsində tətbiq etmək bacarığına **(ÜK-5);**
- peşə fəaliyyəti sahəsində əmək kollektivində işləmək qabiliyyətinə **(ÜK-6);**
- peşə fəaliyyəti ilə bağlı digər sahələrin mütəxəssisləri ilə ünsiyyətdə olmaq qabiliyyətinə **(ÜK-7);**
- kollektivin ictimai həyatında fəallıq göstərmək qabiliyyətinə **(ÜK-8);**
- hüquqi biliklərə malık olmaq və etik normaları bilmək qabiliyyətinə **(ÜK 9);**
- sərbəst düşünmək və müstəqil qərar qəbul etmək, təşəbbüskarlıq və yaradıcı qabiliyyətə **(ÜK-10);**
- təşkilati və idarəçilik, planlaşdırma qabiliyyətinə malik olmaq bacarıqlarına **(ÜK-11).**
- tibb personalının və əhalinin mümkün olan qəza və təbii fəlakətlərdən müdafiə olunmasının əsas metodlarını bacarmaq qabiliyyətinə **(ÜK-12);**

- müasir cəmiyyətin inkişafında informasiyanın mahiyyət və əhəmiyyətini başa düşmək, bu prosesdə baş verə biləcək təhlükəni hiss etmək, informasiya təhlükəsizliyinin, o cümlədən dövlət sirrinin saxlanılmasının əsas tələblərinə riayət etmək bacarığına **(ÜK-13);**
- informasiyanın alınması, işlənməsi və saxlanması metod, qayda və vasitələri barədə bilik və bacarıqlara malik olmaqla yanaşı, kompüterlə işləmək bacarığına **(ÜK-14).**

**2.2.2.** Məzun aşağıdakı peşə kompetensiyalarına (**PK**) yiyələnməlidir:

- həmkarları, orta və kiçik tibb heyəti, yaşlı əhali, uşaqlar və yeniyetmələr, habelə onların valideynləri və ailə üzvləri ilə ünsiyyət zamanı həkim fəaliyyətinin etik və deontoloji aspektləri və onları həyata keçirmək bacarığına **(PK–1)**;
- peşə fəaliyyəti zamanı yaranan problemlərin elmi mahiyyətini aşkara çıxarmaq, onları həll etmək üçün müvafiq fiziki-kimyəvi və riyazi üsullardan istifadə etmək bacarığına **(PK–2);**
- ambulator və stasionar xəstənin tibbi kartını doldurmağa, sorğunu, fiziki baxışı, klinik müayinə, müasir laboratoriya və instrumental araşdırmaların nəticələrini, biopsiya, cərrahi və təşrih materiallarının morfoloji təhlilini şərh etmək bacarığına **(PK–3)**;
- yaşlı nəsil, uşaqlar və yeniyetmələr arasında klinik sindromların patofizioloji təhlilini aparmaq, patogenetik nöqteyi-nəzərdən təsdiqlənmiş diaqnostika, müalicə, reabilitasiya və profilaktika metodlarını (prinsiplərini) əsaslandırmaq bacarığına **(PK–4)**;
- canlı şəxslərin məhkəmə-tibbi müayinəsi keçirmək, mütəxəssis və ya ekspert qismində prosessual hərəkətlərə cəlb olunan hallarda məhkəmə-tibbi ekspertiza obyektlərinin laborator müayinələrinin nəticələrini şərh etmək bacarığına **(PK–5)**;
- yaşlı şəxslər, uşaqlar və yeniyetmələr arasında xəstəliklərin yaranmasında təbii və mühitin tibbi-sosial amillərinin qiymətləndirilməsi üsullarından istifadə etmək, onların korreksiyasını aparmaq, yoluxucu, parazitar və qeyri-yoluxucu xəstəliklərin qarşısını almaq üçün profilaktik tədbirlər həyata keçirmək, gigiyenik məsələlər üzrə sanitar maarifləndirmə işini aparmaq bacarığına **(PK–6)**;
- təhkim olunmuş əhali ilə tez-tez təsadüf edilən xəstəliklərin qarşısının alınması üçün profilaktik tədbirlər keçirmək, sağlamlıq vəziyyəti və yaş-cins qrupları nəzərə alınmaqla sağlam həyat tərzini tərənnüm edən ümumsağlamlıq yönümlü tədbirlər keçirmək, sağlam qidalanma və idmanla məşğul olma ilə əlaqədar tövsiyələr vermək, xroniki xəstələrin və sağlam şəxslərin dispanser nəzarətinin effektivliyini qiymətləndirmək bacarığına **(PK–7)**;
- vərəmi erkən mərhələdə aşkar etmək məqsədi ilə yaşlı şəxslər, uşaqlar və yeniyetmələr üçün vərəm diaqnostikasını və flüoroqrafik müayinələri təşkil etmək, onların nəticələrini qiymətləndirmək, vərəmin diaqnostikasının nəticələri əsasında yaşlı və yeniyetmələrdə müşahidə məqsədi ilə onları seçmək və nəticələri qiymətləndirmək bacarığına **(PK–8)**;
- radiasiya fonunun pisləşməsi və təbii fəlakətlər zamanı, xüsusi təhlükəli infeksiya mənbələrində əhalinin qorunması məqsədi ilə əks-epidemik tədbirlər həyata keçirmək bacarığına **(PK–9)**;
- klinik-immunoloji müayinənin əsas metodikalarına, anatomik-fizioloji biliklərə əsaslanaraq, ayrıca orqan və sistemlərin fəaliyyətində qanunauyğunluqların təhlil edilməsi vasitəsilə yaşlı şəxslərin, uşaq və yeniyetmələrin orqanizmlərinin funksional vəziyyətini qiymətləndirərək vaxtında xəstəliklərin diaqnostikasını aparmaq və patoloji prosesləri üzə çıxarmaq bacarığına **(PK–10);**
- tibbi-bioloji və klinik biliklərdən istifadə edərək və ümumilikdə orqanizmdə və onun sistemlərində, orqanlarda patologiyanın inkişaf qanunauyğunluqlarını nəzərə alaraq xəstələrdə patoloji simptom və xəstəliklərin sindromlarını üzə çıxarmağa, müxtəlif xəstəliklər və patoloji proseslər zamanı orqanların fəaliyyət qanunauyğunluqlarının təhlilinə, sağlamlıqla bağlı xəstəliklər və problemlərin Beynəlxalq statistik klassifikasiyasını nəzərə alaraq, diaqnozun qoyulmasına (əsas, yanaşı, ağırlaşma), həyat üçün təhlükəli vəziyyətlərin və təxirəsalınmaz halların aşkara çıxarılması üçün əsas diaqnostik tədbirləri yerinə yetirmək və həkim sirrini saxlamaq bacarığına **(PK–11)**;
- tibbi-profilaktiki fəaliyyət üçün insan orqanizminin fizioloji xüsusiyyətlərini nəzərə alaraq, müxtəlif yaş-cins qrupları üzrə muasir diaqnostik texnologiyaların nəticələrini təhlil və şərh etmək, fizioloji hamiləliyin diaqnozunu təyin etmək, məhkəmə-tibbi ekspertizasının keçirilməsində iştirak etmək bacarığına **(PK–12)**;
- yaşli nəsil, uşaqlar və yeniyetmələr arasında ağir fəsadlara, eləcə də ölümlə nəticələnən hallara gətirib çıxaran, tez-tez təsadüf edilən xəstəliklər və patoloji vəziyyətlər (sinir, endokrin, immun, ürək-damar, tənəffüs, həzm, sidik-cinsiyyət sistemi və qan xəstəlikləri) baş verən zaman əsas müalicə tədbirlərinin keçirmək, həyat üçün təhlükə yaradan pozulmaları (kəskin qan itirmə, tənəffüsün pozulması, ürək dayanması, koma, şok) vaxtında üzə çıxarmaq, onların dərhal aradan qaldırılması metodikalarından istifadə etmək və şoka qarşı tədbirləri həyata keçirmək bacarığına **(PK–13)**;

- təyin edilmiş diaqnoz əsasında xəstələrə adekvat (terapevtik və cərrahi) müalicə təyin etmək, yoluxucu və qeyri-yoluxucu xəstələrə medikamentoz və qeyri-medikamentoz terapiya aparmaq, fizioloji hamiləliyin aparılması, doğuşu qəbul etmək bacarığına **(PK–14)**;
- təxirəsalınmaz hallarda və həyat təhlükəsi olan vəziyyətlərdə, ekstremal epidemioloji şəraitdə, kütləvi qırğın silahları tətbiqi ocaqlarında, əhaliyə ilkin tibbi yardım göstərmək, xəstələrin planlı və ekstremal qaydada hospitalizasiyasını təşkil etmək, fövqəladə hallar zamanı müalicə-təxliyə tədbirlərini həyata keçirmək bacarığına **(PK–15)**;
- morfofunksional statusdan asılı olaraq, hərəkət fəaliyyətinin optimal rejiminin seçimində tövsiyələrin verilməsinə, müalicəvi bədən tərbiyəsi, fizioterapiya, refleksoterapiya, fitoterapiya, homeopatiya və digər dərmansız terapiya vasitələrinin təyin edilməsi üçün göstərişlər və əks göstərişləri müəyyən etmək, yaşlı şəxslərin, uşaqların və yeniyetmələrin müalicəsi zamanı əsas kurort amillərindən istifadə etmək bacarığına **(PK–16)**;
- yaşlı əhaliyə, uşaqlara, yeniyetmələrə və onların ailə üzvlərinə səhhətin möhkəmləndirilməsinə və xəstəliklərin profilaktikasına kömək edən sağlamlaşdırıcı xarakterli gigiyenik tədbirlərin keçirilməsinə, onların hərəkət aktivliyinin lazımi səviyyədə saxlanılmasına yardım edən sağlam həyat tərzi elementlərinin formalaşmasına və zərərli vərdişlərin aradan qaldırılmasına yönəldilmiş təlimlər aparmaq bacarığına **(PK–17)**;
- səhiyyədə qəbul olunmuş normativ sənədlərdən (Azərbaycan Respublikası qanunları, beynəlxalq və milli standartlar, əmrlər, tövsiyələr, terminologiyalar, beynəlxalq vahidlər sistemi, qüvvədə olan beynəlxalq klassifikasiyalar), habelə tibb müəssisələrinin fəaliyyət effektivliyini qiymətləndirən sənədlərdən istifadə etmək bacarığına **(PK–18)**;
- tibb müəssisələrinin orta və kiçik tibb personalı üçün səmərəli iş rejimi təşkil etmək bacarığına **(PK–19)**;
- xəstələrin əmək qabiliyyətinin itirilməsi ilə (müvəqqəti, daimi) əlaqədar ekspertizaların keçirilməsinə aid məsələləri həll etmək, müvafiq tibbi sənədləri tərtib etmək, xəstənin tibbi-sosial ekspertizaya göndərişinin zəruriliyini təyin etmək bacarığına **(PK–20)**;
- elmi-tibbi məlumatların tədqiq olunan sahə üzrə ölkədaxili və xarici təcrübəni öyrənmək, işlərdən praktiki nöqteyi-nəzərdən istifadə və tədqiqatların nəticəsinin tətbiq olunmasında yeni perspektivli üsulların yaradılması məqsədi ilə müasir nəzəri və eksperimental tədqiqat metodlarının mənimsənilməsində iştirak etmək bacarığına **(PK–21)**.

## 3. Təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblər

### 3.1. Peşə fəaliyyətinin xarakteristikası

### 3.1.1. Peşə fəaliyyətinin əsas istiqamətləri:

**070101 – Müalicə işi** ixtisası üzrə həkimlərin peşə fəaliyyətinin əsas istiqamətləri:
- tibb sahəsində elmi-tədqiqat fəaliyyəti;
- istehsalat – texnoloji proseslərlə əlaqədar olan fəaliyyət;
- təşkilati-idarəetmə fəaliyyəti.

### 3.1.2. Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə qoyulan tələblər

*Tibb sahəsində elmi-tədqiqat fəaliyyəti:*
- elmi ədəbiyyatın və rəsmi statistik xülasənin analizini aparmaq, müasir elmi problemlərə dair referatları hazırlamaq, tibb sahəsində diaqnostik, müalicə, reabilitasiya və profilaktik işlərə dair ayrı-ayrı elmi-tədqiqi və elmi-tətbiqi məsələlərin həllində iştirak etmək;
- təsdiq olunmuş metodikaya uyğun ayrı-ayrı bölmələr (mərhələlər, tapşırıqlar) üzrə elmi-tədqiqatlar aparmağı bacarmaq;
- elmi-tədqiqatların həllində iştirak etməklə yekun və nəticələrin təhlilini qısa və dürüst ifadə etmək.

*İstehsalat – texnoloji proseslərlə əlaqədar olan fəaliyyət:*
- ixtisas üzrə biliklərdən istifadə etmək;
- informasiyaların toplanması və işlənməsində müasir üsullardan istifadə etmək;
- ixtisas sahəsinin əsas problemlərini dərk etmək, onların konkret tətbiq sahələrini bilmək, elmlərarası əlaqələri görmək;
- məlumatların işlənməsində informasiya kommunikasiya texnologiyasından istifadə etmək.

*Təşkilati-idarəetmə fəaliyyəti:*

- tibb müəssisələrində tibb personalının əməyini təşkil etmək, funksional vəzifələrini təyin etmək və onları optimal qaydada həyata keçirmək;
- əməyin mühafizəsi və texniki təhlükəsizliyi, peşə xəstəliklərinin profilaktikası, ekoloji təhlükəsizliyin təmini və ona riayət olunmasına dair tədbirlər təşkil etmək;
- tibb müəssisələrində tibbi qeydiyyat - hesabat sənədlərini tərtib etmək.

**3.2.** İxtisas üzrə fənn bölümləri, fənlərin kreditləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) və qazanılması nəzərdə tutulan kompetensiyaların kodları

| Fənn bölümünün kodu | Fənn bölümləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) | Fənn bölmələri üzrə kreditlərin sayı | Fənlər | Fənlər üzrə kreditlərin sayı | Qazanılması nəzərdə tutulan kompetensiyaların kodları |
|---|---|---|---|---|---|
| | **Təhsil hissəsi** | | | | |
| **HF – B00** | **Humanitar fənlər bölümü**<br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində həkim aşağıdakıları **bilməlidir:**<br>- Azərbaycanın inkişaf tarixinin əsas mərhələlərini, Azərbaycan dövlətinin dünya tarixində və müasir dünyada yerini və rolunu; ictimai və iqtisadi inkişafın, münasibətlərin, idarəetmənin qanun və qaydalarını;<br>- Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tarixini, daxili və xarici siyasətini, süqutunu;<br>- Azərbaycanda Sovet Hakimiyyətinin qurulmasını, 30-cu illərdəki repressiyaları, II Dünya Müharibəsi (1941-1945) dövründə xalqın vətənpərvərli-yini, mədəniyyət və iqtisadiyyat sahələrində nailiyyətlərini;<br>- 1991-1993-cü illərdə dövlət müstəqilliyinin bərpası tarixini, Qarabağ müharibəsinin tarixini, siyasi və iqtisadi böhranları;<br>- Ümummilli lider Heydər Əliyevin Respublika iqtisadiyya-tının inkişafında misilsiz rolunu, daxili və xarici siyasətdə əldə edilmiş nailiyyətləri;<br>- Azərbaycan dilinin mühüm fonetik və qrammatik qayda-qanunlarını, ədəbi dilin yazılı və şifahi formalarını, ədəbi tələffüz qaydalarını, xalqımızın görkəmli şəxsiyyətlərinin, ədəbiyyatımızın klassiklərinin həyatını və onların əsas əsərlərini, milli ənənələrimizi, Azərbaycan dilində ixtisasa aid mühüm terminləri;<br>- ixtisasa aid xarici dildə olan ədəbiyyatı oxuyub başa düşməyi;<br>- cəmiyyətin ümumi qanunauyğunluqlarını, hüquqi bilikləri, demokratiyanın əsas prinsiplərini, beynəlxalq prosesləri;<br>- həkimin hüquq və vəzifələrini, cəmiyyətdə tutduğu yeri;<br>- xarici ölkələrin hüququnu, konstitusiya, mülki, əmək, ailə, inzibati və cinayət hüququnun əsas prinsip və müddəalarını.<br><br>**bacarmalıdır:**<br>- Azərbaycan tarixinin əsas mərhələləri və xronologiyası barədə elmi təsəvvür yaratmağı, tarixi şəxsiyyət və hadisələr haqqında məlumat verməyi;<br>- ünsiyyət qurmağı, tibbi ədəbiyyatı oxuyub təhlil etməyi;<br>- problemlərin fəlsəfi təhlilinin aparılmasını, bioetikanın forma və metodlarını, həkim-pasient və həkim-ictimai mühit əlaqələrinin qurulmasını;<br>- məntiqi təfəkkürə, sərbəst düşüncə tərzinə, ictimai | 30 | **HF–B01**<br>Azərbaycan tarixi<br><br>**HF–B02**<br>Xarici dil<br><br>**HF–B03**<br>Azərbaycan dili və nitq mədəniyyəti<br><br>**HF–B04**<br>Seçmə fənlər* | 6<br><br><br>13<br><br><br>5<br><br><br><br>6 | **ÜK-2**<br>**ÜK-3**<br>**ÜK-4**<br>**ÜK-5**<br>**ÜK-8**<br>**ÜK-9**<br>**ÜK-14** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | çixişlar etmək, diskussiyalar aparmaq qabiliyyətinə malık olmalı; kollektivdə əlverişli psixoloji mikroiqlim yaratmağı;<br>- xarici dildə ixtisasa aid ədəbiyyatı lüğətlə tərcümə etməyi, annotasiya, referat, tezis və s. yazmağı.<br>**yiyələnməlidir:**<br>- Azərbaycan tarixindən vətənpərvərlik tərbiyəsində istifadə etmək;<br>- Azərbaycan dilində sərbəst danışmaq;<br>- ixtisasa uyğun xarici dildə olan materiallardan istifadə etmək. | | | | |
| **İPF – B00** | **İxtisas-peşə hazırlığı fənləri bölümü**<br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində bakalavr aşağıdakıları **bilməlidir**:<br>- biologiya ilə tibb elmlərinin qarşılıqlı əlaqəsini, həyatın mahiyyəti və orqanizmlərin quruluş səviyyəsini, hüceyrə haqqında ümumi məlumatları, ontogenezin biologiyasını, embrional və postembrional inkişafın əsas qanunauyğun-luqlarını, sağlamlıq və xəstəliyə bioloji baxışı, ümumi genetikanın əsaslarını, genlərin ilişikliyi və xromosom xəritələrini, genlərin qarşılıqlı təsirini, insan genetikasının əsaslarını, irsi materialların xromosom, gen və genom səviyyəsində təşkilini, cinsiyyətin genetikasını, insanın qocalması və herontologiyanın əsaslarını, regenerasiya və transplantasiyanın əsas mexanizmlərini, hemeostazı, insan ekologiyasının bioloji aspektlərini;<br>- orqanizmdə baş verən proseslərin əsasını təşkil edən ən ümumi fiziki qanunauyğunluqları, bir sıra bioloji toxumaların, maye və bərk cisimlərin fiziki xassələrini, orqanizmə təsir edən fiziki amillərin xarakteristikasını və belə təsirlərin biofiziki mexanizmini, tibbi cihazın çıxışındakı informasiyanın fiziki xarakterisikasını, ionlaşdırıcı şüalanmaların dozimetriyasını, müasir informasiya texnologiyalarının tibdə tətbiqi, informasiya axtarışı, informasiyanın işlənməsi və təqdim edilməsinin üsul və vasitələrini;<br>- canlı orqanizmlərdə mühüm rol oynayan biogen elementlərin və onların birləşmələrinin kimyəvi xassələrini, metabolizm prosesində özünü göstərən üzvi molekullardakı əsas finksional qrupları və onların iştirakı ilə gedən mühüm kimyəvi reaksiyaları, karbohitratların, zülalların, nuklein turşularının, lipidlər və bioloji nizamlayıcıların kimyəvi xüsusiyyətləri, canlı orqanizmdə gedən müxtəlif proseslərin istiqaməti, energetikası və sürəti haqqında təsəvvürlərin formalaşması üçün bioenergetika və kinetikanın əsaslarını, orqanizmdə homeostazın, turşu-əsas tarazlığının və fəal daşınma hadisələrinin fiziki-kimyəvi aspektlərini, fermentlərin (enzimlərin) təsir mexanizmini və kinetikasını, dispers hissəciklərin elektrik xassələrini və membran potensialının təbiətini, tibbdə tətbiq olunan fiziki-kimyəvi analiz üsullarının mahiyyətini;<br>- insan anatomiyasının məqsədini, öyrənilmə üsullarını, orqanizmi təşkil edən orqanları, sistemləri, onların arasında olan mexaniki, sinir və humoral əlaqələri, orqanizmlə xarici mühit arasındakı qarşılıqlı əlaqəni, orqanizmin inkişaf xüsusiyyətlərini, orqanların topoqrafiyasını, onları qidalandıran damar və sinirləri, ayri-ayrı sistemlərin inkişafını, quruluşunu, funksiyasını, onlara təsir edən amilləri, onun nəticəsində əmələ gələn anomaliya və eybəcərlikləri; | **306** | **İPF-B01**<br>Tibbi biologiya və tibbi genetika<br><br>**İPF-B02**<br>Tibbi fizika və informatika<br><br>**İPF-B03**<br>Biofiziki və bioüzvi kimya<br><br>**İPF-B04**<br>İnsan anatomiyası<br><br>**İPF-B05**<br>Latın dili<br><br>**İPF-B06**<br>Histologiya, embriologiya və sitologiya<br><br>**İPF-B07**<br>Mikrobiologiya və immunologiya<br><br>**İPF-B08**<br>Biokimya. Biofizika<br><br>**İPF-B09**<br>Tibb tarixi<br><br>**İPF-B10**<br>Normal fiziologiya<br><br>**İPF-B11**<br>Patoloji anatomiya<br><br>**İPF-B12**<br>Patoloji fiziologiya<br><br>**İPF-B13**<br>Farmakologiya<br><br>**İPF-B14**<br>Ümumi gigiyena, ekologiya və hərbi gigiyena | 7<br><br>8<br><br>6<br><br>14<br><br>4<br><br>10<br><br>9<br><br>10<br><br>2<br><br>9<br><br>8<br><br>8<br><br>7<br><br>7 | **ÜK-1**<br>**ÜK-6**<br>**ÜK-10**<br>**ÜK-12**<br>**ÜK-13**<br>**ÜK-14**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-6**<br>**PK-7**<br>**PK-8**<br>**PK-9**<br>**PK-10**<br>**PK-11**<br>**PK-12**<br>**PK-15**<br>**PK-16**<br>**PK-17**<br>**PK-18**<br>**PK-19**<br>**PK-20**<br>**PK-21** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | - latın dilində leksik minimumu, əczaçılıq texnologiyasını, latın dili morfologiyası və sözdüzəltmə üsullarını;<br>- tibbin inkişaf qanunauyğunluqlarını, dünyagörüşünü və həkim təfəkkürünün formalaşmasını;<br>- insan orqanizmini təşkil edən hüceyrə və toxuma tiplərinə xas olan mikroskopik və ultrastruktur quruluş xüsusiyyətlərini,<br>mayalanmanın molekulyar mexanizmini, rüşeym vərəqələrinin formalaşmasını, orqanagenezin və sistemogenezin əsas mərhələlərini, orqanların histoloji və ultrastruktur xarakter xüsusiyyətlərini, prenatal və postnatal dövrlərdə orqan və sistemlərin inkişaf mərhələlərini və ən çox təsadüf edilən variasiya və anomaliyalarını;<br>- bakterial, virusoloji, protozoy, göbələk və prion infeksiyalarının etiologiya və patogenezini, infeksion xəstəliklərin ekspres diaqnostikası və ən yeni immunoloji diaqnostika üsullarını, müasir antibiotikoterapiya prinsipləri, onun fəsadları və qarşısının alınma yollarını, xəstəxanadaxili infeksiyalar, onların qarşısının alınma yolları, immunpatoloji reaksiyalar (allergiya) və bunların qarşısının alınması yollarını;<br>- insan orqanizminin əsasını təşkil edən maddələrin (biopolimerlərin kiçikmolekullu bioloji aktiv maddələri və s.) kimyəvi strukturunu və funksiyasını, hüceyrənin həyat fəaliyyəti zamanı baş verən biokimyəvi prosesləri və onlar arasındakı əlaqələri, enerji hasilatı və istifadəsi yollarını və mübadilə proseslərinin pozulması nəticəsində baş verən patoloji proseslərin ümumi qanunauyğunluqlarını;<br>- fiziologiyanin əsas inkişaf mərhələləri və onun inkişafında xarici ölkə və vətən alimlərinin rolunu, sağlam orqanizmin hüceyrə, toxuma, orqanlar və sistemlərin funksiyalarının qanunauyğunluqları və ümumi fiziologiya, xüsusi fiziologiya və insan fəaliyyətinin inteqrativ davranış baxımından onun tənzim mexanizmlərini, praktik təbabətdə geniş istifadə olunan sağlam orqanizmin müxtəlif funksiyalarının tədqiqat üsullarının mahiyyətini;<br>- ümumpatoloji proseslərin ümumi qanunauyğunluqları, immun-patoloji prosesləri, xüsusi patologiyanın məzmununu. Xəstəliklər, nozologiya, patomorfoz və tanatogenez; patoloji-anatomik diaqnoz;<br>- ümumi nozologiya haqqında məlumatı, xəstəliyin əmələ gəlməsində və inkişaf etməsində səbəb amilinin, şərait və reaktivliyin rolunu, patoloji reaksiyaların və tipik patoloji proseslərin əmələ gəlmə səbəblərini, inkişaf mexanizmini, əlamətlərini, orqan və sistemlərin patologiyasının ümumi inkişaf qanunauyğunluqlarını, onların səbəblərini, mexanizmini və əsas əlamətlərini;<br>- dərman maddələrinin orqanizmə təsiri yollarını, farmakodinamikasını, dərman maddələrinin təsir mexanizmlərini, istifadələrinə göstərişləri, əsas təsirləri və istifadəsinə əks göstərişləri;<br>- insanı əhatə edən təbii ətraf mühit və istehsalat mühiti ilə orqanizm arasında qarşılıqlı əlaqələrin qanunauyğunluqlarını, bu əlaqələrin fizioloji və gigiyenik-ekoloji əsaslarını, ətraf mühit amillərinin sağlamlığa təsir xüsusiyyətlərini, bu amillərin təsiri ilə sağlamlıq vəziyyəti arasındakı səbəb-nəticə əlaqələrinin ümumi əsaslarını, ətraf mühitin obyekt və amillərinin | | **İPF-B15**<br>Operativ cərrahlıq və topoqrafik anatomiya<br><br>**İPF-B16**<br>İctimai sağlamlıq və səhiyyənin təşkili<br><br>**İPF-B17**<br>Epidemiologiya. Hərbi epidemiologiya<br><br>**İPF-B18**<br>Ümumi cərrahiyyə<br><br>**İPF-B19**<br>Şüa diaqnostikası və şüa terapiyası<br><br>**İPF-B20**<br>Terapevtik və pediatrik propedevtika<br><br>**İPF-B21**<br>Dəri-zöhrəvi xəstəliklər<br><br>**İPF-B22**<br>Nevrologiya və tibbi genetika<br><br>**İPF-B23**<br>Daxili xəstəliklər. Hərbi səhra terapiyası<br><br>**İPF-B24**<br>Qulaq, burun, boğaz xəstəlikləri<br><br>**İPF-B25**<br>Cərrahi xəstəliklər. Hərbi səhra cərrahiyyəsi<br><br>**İPF-B26**<br>Yoluxucu xəstəliklər<br><br>**İPF-B27**<br>Neyrocərrahiyyə<br><br>**İPF-B28**<br>Mamalıq və ginekologiya<br><br>**İPF-B29**<br>Psixiatriya | 7<br><br>4<br><br>3<br><br>6<br><br>5<br><br>10<br><br>5<br><br>5<br><br>15<br><br>4<br><br>11<br><br>7<br><br>3<br><br>8<br><br>5 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | (fiziki, kimyəvi, bioloji və s.) fizioloji-gigiyenik əhəmiyyətini, təbii ətraf mühit obyektlərinin (hava, yeyinti məhsulları, torpaq, su), gigiyenik-fizioloji və epidemioloji əhəmiyyətini, bu obyektlərə xas olan amillərin orqanizmə və sağlamlığa təsirinin ümumi qanunauyğunluqlarını və spesifik xüsusiyyətlərini, təbii ətraf mühit amilləri və obyektlərinin zərərli təsiri nəticəsində orqanizmdə və sağlamlıqda baş verən əlverişsiz dəyişiklikləri və onların profilaktikasına dair tədbirlərin ümumi prinsiplərini, müalicə-profilaktika müəssisələrinin gigiyenik problemlərini, sanitariya-gigiyenik rejimin mahiyyət və xüsusiyyətlərini;<br>- topoqrafik anatomiyanın əsas anlayışlarını, nahiyələrin təbəqələr üzrə quruluş prinsipini, daxili orqanların topoqrafiyasını (holotopiya, sintopiya və skeletopiya), müayinə və diaqnostika metodlarının, orqanlara operativ yol seçilməsinin və cərrahi müdaxilə prinsiplərinin topoqrafo-anatomik əsaslandırılmasını, damar-sinir elementlərinin topoqrafiyasını;<br>- ictimai sağlamlığın meyarları, ona təsir edən amilləri, ictimai sağlamlıq və onu formalaşdıran müxtəlif amillər və onların komplieksləri arasında əlaqələri öyrənməyə imkan verən tədqiqat üsullarını, demoqrafiya, demoqrafik proseslər, əhalinin statistikası və dinamikası, onların öyrənilmə üsullarını, demoqrafik siyasəti, onu formalaşdıran amilləri, herontologiya və heriatriya problemlərini, əhalinin sağlamlıq vəziyyətinin formalaşmasında rolunu;<br>- epidemioloji proseslər haqqında müddəaları, xəstəliyin tədqiqinə epidemioloji yanaşmanı, epidemioloji müayinə növləri və onların təyinatını;<br>- epidemik prosesi, uşaq, yeniyetmələr və yaşlı şəxslərdə qeyri-yoluxucu epidemiologiyanı, yoluxucu və parazitar xəstəliklərin epidemiologiyasını, əks-epidemik tədbirləri həyata keçirməyi, xüsusi təhlükəli infeksiya mənbələrində, radiasiya fonunun pisləşməsi və təbii fəlakətlər zamanı əhalinin qorunmasını;<br>- hərbi kollektivlərdə epidemik prosesin hərəkətverici qüvvələri, səbəb, şərait, inkişaf mexanizmi və təzahür formalarını, bakterioloji silah ocağında epidemiyaların özünəməxsus gedişi və tibbi-taktiki səciyyəsini;<br>- uşaq və yeniyetmələrdə yoluxucu xəstəliklərin diaqnos-tikası, müalicəsi və reabili-tasiyasının əsas prinsipləri, uşaq və yeniyetmələrdə yoluxucu xəstəliklər zamanı hospita-lizasiyaya göstərişlər;<br>- ümumi cərrahlığın nəzəri və təcrübi əsaslarını;<br>- şüa diaqnostik metodların mahiyyəti və müasir təbabətdə rolunu, şüa diaqnostik metodlarla təsvirin alınması prinsipini (rentgenoloji, ultrasəs, kompüter tomoqrafiya, maqnit-rezonans tomoqrafiya, radionuklid müayinələr), təbabətdə diaqnostika və müalicə məqsədi ilə tətbiq edilən şüaların fiziki və radiobioloji xüsusiyyətlərini, ionlaşdırıcı şüaların zərərli təsirindən qorunma tədbirlərini, ayrı-ayrı sistemlərin xəstəliklərinin diaqnostikasında şüa diaqnostik alqoritmlərin qurulmasını;<br>- xəstələrin subyektiv, obyektiv, laborator-instrumental müayinə üsullarını, ən çox təsadüf edilən terapevtik xəstəliklərin etiologiyası, patogenezi, klinikası və diaqnostikası haqqında mühüm məlumatları;<br>- biopsiya üçün materialın götürülməsi və patomorfoloji müayinənin ümumi prinsiplərini;<br>- sinir sisteminin ayrı-ayrı hissələrinin əsas | | **İPF-B30**<br>Klinik farmakologiya<br><br>**İPF-B31**<br>Ağciyər xəstəlikləri<br><br>**İPF-B32**<br>Fizioterapiya və idman təbabəti<br><br>**İPF-B33**<br>Oftalmologiya<br><br>**İPF-B34**<br>Məhkəmə təbabəti<br><br>**İPF-B35**<br>Stomatologiya<br><br>**İPF-B36**<br>Urologiya<br><br>**İPF-B37**<br>Onkologiya<br><br>**İPF-B38**<br>Travmatologiya və ortopediya<br><br>**İPF-B39**<br>Uşaq xəstəlikləri<br><br>**İPF-B40**<br>Ailə təbabəti<br><br>**İPF-B41**<br>Uşaq cərrahlığı<br><br>**İPF-B42**<br>Uşaq yoluxucu xəstəlikləri<br><br>**İPF-B43**<br>Mülki müdafiənin tibb xidməti<br><br>**İPFS – B00**<br>Seçmə fənlər<br>*(Peşə hazırlığı üzrə*)* | 2<br><br>4<br><br>4<br><br>3<br><br>3<br><br>2<br><br>3<br><br>6<br><br>3<br><br>8<br><br>2<br><br>2<br><br>3<br><br>3<br><br>51 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | funksiyalarını, bir-biri ilə əlaqələrini, nevroloji terminləri, əsas nevroloji xəstəliklərin klinikası və profilaktikasını;<br>- tez-tez təsadüf edilən xəstəliklərin etiologiyası, patogenezi və profilaktik tədbirlərini, xəstəliklərin müasir klassifikasiyasını;<br>- hərbi terapiyanın məqsəd və vəzifələrini, tibbi təxliyə mərhələlərində göstərilən terapevtik yardımın növləri və həcmini, tibbi təxliyə mərhələlərində terapevtik profilli xəstə və yaralıların çeşidlənmə prinsirplərini;<br>- LOR orqanlarının iltihabı və digər xəstəlikləri, şişləri zamanı müalicə prinsiplərini;<br>- cərrahi xəstəliklərin: döş qəfəsi orqanlarının (ağciyər, ürək, divar aralığının, plevranın), qarın boşluğu orqanlarının (mədə, bağırsaq, qaraciyər, dalaq, mədəaltı vəz), damarların (arterial, venoz və kapilyar), qalxanabənzər vəzin, qarın yırtıqlarının etiopatogenezi, klinikası, diaqnozu, differensial diaqnozu, konservativ və operativ müalicə üsullarını;<br>- dinc yaşayış və müharibə dövründə cərrahi yardımın təşkilinin ümumi müddəalarını, müasir odlu silahlardan alınan yaralanmalar, qapalı zədələnmələr, yara infeksiyası, şok, qan itirmə klinikası, diaqnostikası və müalicə üsullarını, tibbi təxliyə mərhələlərində ilk həkim və ixtisaslı cərrahi yardımın məzmunu, həcmi və yardım göstərilməsinin təşkilini;<br>- şişlərin etiologiya, patogenez və yayılma xüsusiyyətlərini, şişlərin təsnifatını, müalicənin əsas xüsusiyyətləri, o cümlədən müxtəlif lokalizasiyalı orqanların üzərində aparılan əməliyyatları, kimyəvi dərman müalicəsinin aparılma yollarını, preparatların adlarını və istifadə olunan sxemləri, şüa terapiyasına göstərişləri və onun müxtəlif üsullarının tətbiqini.<br>- dünya miqyasında, qonşu ölkələrdə, o cümlədən Respublikada (məhəlli patologiyalar) daha çox təsadüf edilən yoluxucu xəstəliklər haqqında statistik və ümumi məlumatları, yoluxucu xəstəliklərin klinik simptom və sindromlarını, yoluxucu xəstəliklərin hospitalizasiyasına klinik və epidemioloji göstəriciləri, yoluxucu xəstəliklərin hospitalizasiya qaydalarını, müalicə müəssisəsində və evdə müalicə zamanı əks-epidemik rejim anlayışını, yoluxucu xəstəliklərin əsas diaqnostika üsullarını, yoluxucu xəstəliklərin əsas ağırlaşmaları və nəticələrini, terapiya prinsiplərini, profilaktika prinsip və metodlarını, təxirəsalınmaz halların klinik təzahürlərini, karantin infeksiyalarda əks-epidemik, tədbirlərin təşkilini;<br>- neyrocərrahi xəstələrdə müayinə aparılmasının (KT və MRT) tətbiqi və nəticələrin təhlilini, neyrocərrahi əməliyyatların növü və patologiyalara uyğun seçilməsini, əməliyyatlardan sonrakı ağırlaşmaları, onların profilaktika və müalicəsini;<br>- hamiləliyin fizioloji və patoloji gedişatını, doğuş prosesinin gedişini, doğuş fəaliyyətinin patologiyasını, doğuşda istifadə edilən kiçik mamalıq əməliyyatları, keysəriyyə kəsiyinə göstərişlər və əks göstərişlər, yeni doğulmuşların vəziyyətinin qiymətləndirilməsi, hamiləlikdə, doğuşda, erkən zahılıq dövründə qanaxmaların səbəbini, mamalıq taktikasını;<br>- psixi xəstəliklərin klinikası, etiologiyası, patogenezi, diferensial diaqnostikası, müalicə prinsiplərini, psixi xəstələrin reabilitasiya məsələlərini;<br>- sağlam və xəstə şəxslərdə işlədilən dərman | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | maddələrinin farmokokinetika, farmakodinamikası, onların qarşılıqlı və əlavə təsirləri haqqında son məlumatları nəzərə almaqla farmakoterapiya zamanı dərman maddələrinin effektli və təhlükəsiz seçilməsini;<br>- vərəmli xəstələrin müayinə və müalicəsini;<br>- təbii və süni fiziki amillərin biofiziki əsaslarını və müalicəvi təsir mexanizmini, müalicə-reabilitasiya və profilaktika məqsədi ilə işlədilən fiziki amillərə əsas göstəriş və əks göstərişləri, sanator-kurort müalicəsi və tibbi reabilitasiyada fizioterapevtik yardımın təşkil edilməsi üçün sənədləri, müxtəlif müalicəvi fiziki amillərin qarşılıqlı təsirini, parametrlərini, müalicə üsullarını, dozalaşdırmanın əsaslarını, idman təbabəti anlayışını, məqsəd və vəzifələrini, ölkəmizdə bu sahənin strukturunu, sağlamlıq və sağlam həyat tərzi anlayışını, fiziki inkişafın müayinə üsullarını, fiziki məşğələlərin orqanizmə göstərdiyi təsiri, tənəffüs və ürək-damar sisteminin funksional sınaqlarının və cavab reaksiyalarının növlərini, həkim qərarının komponentlərini;<br>-reabilitasiyanin aspekt və prinsiplərini, fiziki reabilitasiya anlayışını, xəstələrə tətbiq olunan reabilitasiya vasıtələrini;<br>- görmə orqanının anatomiya və fiziologiyasını, müxtəlif göz xəstəliklərinin etiologiyası və patologiyasını, göz xəstəliklərini müasir üsulla konservativ və cərrahi yolla müalicə etməyi;<br>- məhkəmə-tibb ekspertizasının təyin edilməsini, keçirilməsini, sənədləşdirilməsini nizamlayan normativ aktları və cinayət-prosessual qanunvericiliyini, məhkəmə-tibb ekspertinin hüquq və vəzifələrini, meyitlərin məhkəmə-tibbi müayinə qaydalarını, sağlamlığa zərər vurmanın məhkəmə-tibbi təyinini, məhkəmə-tibbi travmatologiyanın və məhkəmə-tibbi tanatologiyanın əsas elmi məlumatlarını, bioloji xarakterli obyektlərin məhkəmə-tibbi müayinəsi zamanı laborator metodları;<br>- uroloji xəstəliklərin simptomları, laborator və instrumental müayinə üsullarını, sidik-cinsiyyət sistemi üzvlərinin anomaliyaları, patoloji hərəkətli böyrək, nefrotozun müayinə və müalicə üsullarını, sidik daşı xəstəliyinin yayılması, əmələ gəlmə səbəbləri, diaqnostikası və müalicəsi, hidronefroz, təsnifati, əmələ gəlmə səbəbləri, müayinə və müalicə üsulları, prostat vəzi xərçəngi və adenomasının klinik simptomları, ilkin diaqnostikası və müayinə üsullarını;<br>- uşaq xəstəliklərinin profilaktikası və müalicəsi ilə əlaqədar ixtisas məsələlərinin həlli üçün kifayət qədər lazım olan ümumi nəzəri əsasları, orqanizmdə patoloji proseslərin yaranma səbəblərini, onların inkişaf mexanizmini və klinik təzahürlərini, müasir təsnifatları, uşaq xəstəliklərinin etiologiyası və patogenezini, xəstə uşaqların müalicə taktikasını;<br>- səhiyyənin əsas hissəsi olan poliklinikaların strukturu, sahə işi prinsiplərini, əmək qabiliyyətinin müvəqqəti və daimi itirilməsinin tibbi ekspertizasını, təsdiq olunmuş tibbi sənədlərin tərtib edilməsini, səhiyyənin əsas hissəsi olan poliklinikaların profilaktik şöbəsinin, terapevtik və cərrahi profilli müalicə, paraklinik, anonim və əlavə kabinetlərin işini, sanitar-maarif işinin aparılmasını, poliklinikada profilaktik baxışların aparılmasının təşkili və məqsədini, dispanser qeydiyyatında olan xəstələr arasında vaxtaşırı müalicəvi- | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | sağlamlaşdırıcı tədbirlər görülməsi, əlverişsiz proqnozu olan xəstələrə müalicə zamanı palliativ və supportiv müalicənin təşkil olunmasını, xəstələrin qəbulu zamanı qazanılmış immun-defisit sindromuna (QİDS), alkoqolizmə, narkomaniyaya, psixi pozğunluqlara şübhə yaranarsa, həmin mütəxəssislərlə birlikdə müalicə və profilaktika aparılmasını, «herontologiya» və «heriatriya» anlayışlarını, bioetikanı, həkim etikasını, tibbi deontologiyanı, psixi sağlamlığı, peşəkarlıq fəaliyyətini, hüquqi məsuliyyətini və xəstələrin hüquqi müdafiəsini, əsas funksional vəzifələrini, «ictimai sağlamlıq», «sığorta təbabəti», «fəlakət təbabəti» anlayışlarının izahını, reproduktiv sağlamlığı və ailə planlaşdırılmasını, xalq təbabəti və qeyri-ənənəvi müalicə üsullarını;<br>- fövqəladə hallarda mülki müdafiənin rolu və vəzifələrini, əhalinin mühafizəsinin əsas prinsip və üsullarını, mülki müdafiənin tibb xidmətinin vəzifələri və təşkilati quruluşunu;<br>- zədələnmə ocaqlarında ilk tibbi, ilk həkim, təkmilləşdirilmiş və ixtisaslaşdırılmış tibbi yardımın təşkilini, xəstələrə ümumi qulluq qaydalarını.<br><br>**bacarmalıdır:**<br>- peşə fəaliyyətində tədris, elmi, elmi-populyar ədəbiyyatdan və internet şəbəkəsindən istifadə etməyi;<br>- fiziki, kimyəvi və bioloji avadanlıqlardan istifadə etməyi;<br>- böyüdücü texnika ilə işləməyi (mikroskop, optik və sadə lupa);<br>- hüceyrənin orqnoidlərini, xüsusilə cinsi hüceyrələrin quruluşunu preparat üzrə ayırd etməyi, cinsiyyətin genetikasını, xromosom xəritələrini, cinsiyyətlə ilişikli əlamətlərin irsən keçməsini, insan irsiyyətinin əsas öyrənilmə üsullarını, insan kariotipi-cinsi xromatinin təyin olunma üsullarını, heyvanların və insanın embrional və postnatal inkişaf qanunauyğunluqlarını preparat üzrə fərqləndirməyi, insanda parazitlik edən tək-hüceyrəli və çoxhüceyrəlilərdən preparat hazırlamaq və mikroskopda təsvir etməyi, onurğalı heyvanların müqayisəli anatomiyasını - skelet hazırlamağı;<br>- genetik məsələləri həll etməyi;<br>- əsas fiziki ölçmələri aparmağı, ölçmənin nəticələrini təhlil etməyi və bu məqsədlə hesablama vasitələrindən istifadə etməyi, laboratotiya praktikumunda istifadə olunan tibbi cihazlarla işləməyi, modellərdən istifadə etməklə fiziki və bioloji proseslərin tədqiqində kompüter tətbiq etməyi, öz işlərində kompüter və onun imkanlarından geniş istifadə etməyi, elmi, statistik və diaqnostik məsələlər qoymaq və onları həll etməyi;<br>- laboratoriyada təhlükəsizlik qaydalarına əməl etməyi, kimyəvi qablarla, qızdırıcı və digər cihazlarla işləməyi, klinik analizlərin nəticələrini təhlil etmək üçün lazım olan təcrübi vərdişləri, tibbi laboratoriyalarda istifadə olunan bəzi elektrokimyəvi analiz üsullarından istifadə etməyi;<br>- orqanların tanınmasını, fərqləndirici xüsusiyyətlərini, orqanların yerləşdiyi nahiyəni, skeletopiyasını, sintopiyası, meyit və meyit preparatlarının üzərində işlənməsini, istifadəsini (kəsiklərin aparılmasını);<br>- hüceyrə və toxumaların histoloji kəsikləri ilə birlikdə elektronnoqramlarını tanımağı və təsvir etməyi, müxtəlif mikroskopik texnikaların işləmə prinsiplərini | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | mənimsəməyi və işıq mikroskopunda sərbəst işləməyi;<br>- öyrənilən makroskopik, mikroskopik preparatlarda və elektronnoqramda morfoloji dəyişiklikləri təsvir etməyi;<br>- xəstədən götürüləcək patoloji materialların seçilməsi və götürülməsi qaydalarını, alınan laborator nəticələri interpretasiya etməklə müalicə korreksiyası aparmağı, infeksion xəstəliklərin spesifik profilaktikasını aparmağı;<br>- qanda zülalın, şəkərin, xolesterinin, kreatinin miqdarını təyin etməyi, "Indikator" fermentlərin (AlT, AsT və s.) aktivliyini müəyyən etməyi, sidikdə normal patoloji komponentləri təyin etməyi, qanda kalsiumun miqdarını təyin etməyi;<br>- sağlam orqanizm funksiyalarının ən vacib tədqiqat üsulları prinsiplərini izah etməyi, müxtəlif fizioloji göstəricilərin konstant məlumat qiymətlərini şərh etməyi, bütöv orqanizmin və onu təşkil edən hüceyrə, toxuma, orqanlar, sistemlərin fəaliyyətinin tənzim mexanizmlərini izah etməyi. Orqanizmin fizioloji funksiyalarının formalaşması və tənzimlənməsinin əsas qanunauyğunluqlarını qiymətləndirmək və izah etməyi, orqanizmin əsas funksional sistemlərinin quruluş prinsiplərini, fəaliyyətini və əhəmiyyətini qiymətləndirməyi və izah etməyi, orqanizmin əsas davranış aktlarının onun yaşama şəraitindən asılı olaraq formalaşması və tənzimlənməsi qanunauyğunluqlarını qiymətləndirmək və izah etməyi;<br>- ümumbioloji proseslər zamanı üzv və toxumalardakı dəyişikliklərin makroskopik (vizual) və mikroskopik təsviri və qiymətləndirilməsini, patoloji proseslərin xarakteri ilə onların klinik təzahürlərinin əsaslandırılmasını, xəstəliklərin bütün inkişaf mərhələlərində morfoloji və klinik əlamətlərin müqayisəli analizini, müxtəlif xarakterli patoloji proseslər zamanı üzv toxumalardakı dəyişikliklərin makroskopik və mikroskopik təsviri və qiymətləndirilməsini;<br>- bir sıra xəstəliklərin və patoloji proseslərin modellərini laboratoriya heyvanlarında yaratmağı (miokard infarktı, stenokardiya, şok, mədə xorası, şəkərli diabet, nefrit, nevroz və s.), müxtəlif patoloji proseslər zamanı bioloji mayelərdə (sidik, qan, öd, mədə şirəsi və s.) biokimyəvi göstəriciləri tədqiq etməyi;<br>- eksperimental heyvanlar üzərində dərman maddələrinin törətdiyi effektləri müşahidə etmək üçün təcrübələr aparmağı;<br>- əsas diaqnostik allerqoloji sınaqların nəticələrini şərh etməyi;<br>- mikrobioloji və immunoloji diaqnostika aparmağı;<br>- ətraf mühit amillərinin təsiri ilə əhalinin sağlamlıq vəziyyəti və xəstələnmə göstəriciləri arasında səbəb-nəticə əlaqələrini aşkar etməyi, ətraf mühitin təbii və sosial amillərinin gigiyenik müayinələrinin nəticələrini peşə hazırlığı mövqeyindən qiymətləndirməyi, klinik müayinələrdə aşkar olunan patoloji dəyişikliklərin xarici amillərin təsiri ilə əlaqələrini müəyyən etməyi, profilaktik, müalicə və pəhriz qidalanmasının tibbi-gigiyenik aspektlərini təyin və təcrübədə tətbiq etməyi, ətraf təbii mühitin müsbət təsirli amillərindən müalicə və reabilitasiya məqsədləri üçün istifadə etməyi;<br>- patoloji proseslərin patoge-nezini, onların lokallaşdırılmasını, yayılmasını, simptom və sindromlarını, diaqnozun əsaslandırılması, xəstəliklərin | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | müalicəsi və profilaktikası üçün topoqrafik anatomiya biliklərindən istifadə etməyi, daxili orqanların və damar – sinir dəstələrinin proyeksiyasının qurulması, müxtəlif müalicə manipulyasiyalarının və orqanlara operativ yolların icra edilməsi üçün xarici oriyentirlərdən istifadə etməyi, ümumi cərrahi alət və tikiş materiallarından istifadə etməklə biomodellər (anatomik materiallar) üzərində cərrahi texnikanın əsas elementlərini icra etməyi;<br>- müxtəlif orqan və sistemlərin xoş- və bədxassəli şişlərin erkən diaqnostikasını, müxtəlif diaqnostik üsulları və laborator-instrumental üsulları tətbiq etməyi, onkoloji xəstəliklərin başqa xəstəliklərdən diferensial diaqnostikanın aparılmasını;<br>- ictimai sağlamlığın obyektiv qiymətləndirilməsi və ona təsir edən amillərin müəyyənləşdirilməsi üçün informasiya toplamağı, sosioloji, sosial-gigiyenik, ekspert qiymətləndirməsi, büdcə, tədqiqat, iqtisadi, riyazi, riyazi modelləşdirmə və əhalinin sağlamlıq vəziyyətinin qiymətləndirilməsi və ona təsir edən risk amillərinin öyrənilməsi üçün zəruri olan, başqa tədqiqat üsullarını tətbiq etməyi;<br>- profilaktik, gigiyenik və əks-epidemik tədbirləri həyata keçirməyi;<br>- yoluxucu xəstəlik ocağında epidemioloji araşdırma aparmağı, çevik, retrospektiv və prospektiv təhlilin köməyi ilə səbəb-nəticə münasibətlərini təyin etməyi, aktual xəstəliklərə qarşı əks-epidemik tədbir planlarının hazırlanmasını, hərbi hissədə dezinfeksiya, dezinseksiya, deratizasiya işlərini, peyvəndləmə və təcili profilaktika tədbirlərini təşkil etməyi, hərbi hissənin yerləşdiyi və ya əməliyyat apardığı rayonun sanitar-epidemioloji vəziyyətini qiymətləndirməyi və bu əsasda şəxsi heyətin əks-epidemik və bakterioloji silah əleyhinə müdafiə tədbirləri işləməyi, bakterioloji vasitələrin indikasiyası üçün zəruri olan ilkin tədbirlər görməyi;<br>- aseptika, antiseptika tədbirlərini, ağrısızlaşdırmanı, qanköçürməni, sarğıların qoyulmasını, travmaların, cərrahi infeksiyaların, damar və parazitar xəstəliklərin, şişlərin, inkişaf qüsurlarının diaqnozunu qoymağı və yardım etməyi;<br>- şüa diaqnostik müayinə metodlarının məqsədyönlü şəkildə seçilmə ardıcıllığını təyin etməyi və müayinənin növünü seçməyi, şüa diaqnostik metodların aparılmasına göstəriş və əks göstərişləri təyin etməyi, şüa diaqnostik müayinələrə hazırlıq tədbirlərinin aparılmasını, müayinə edilən orqanın şüa diaqnostik təsvirini qavramağı, şüa diaqnostik müayinənin nəticələrinin protokolunu analiz etməyi;<br>- rentgenoloji müayinəyə əsasən sınıq və çıxıqları, qarın boşluğunda sərbəst qazı, hidro-pnevmotoraksı təyin etməyi;<br>- xəstələrlə davranış qaydalarını (deontologiyanı), sorğuların düzgün aparılmasını, fizikal müayinə üsullarını (vizual müayinə, palpasiya, perkussiya, auskultasiya), laborator-instrumental müayinə nəticələrinin interpretasiyasını;<br>- patoloji materiallardan (tüklər, dırnaqlar, pulcuqlar, ifrazatlar, serum, qan, sidik və s.) və mikrob kulturasından yaxmaların hazırlanmasını, sidik-cinsiyyət yollarından material götürülməsi və müayinəsini;<br>- kəllə sinirlərinin, hərəki sistemin, hissiyyatın, vegetativ və periferik sinir sistemlərinin müayinəsini; | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | - klinik diaqnozu təyin etməyi;<br>- vəziyyətdən asılı olaraq xəstəni müalicə etmək üçün fərdi yardım növü seçməyi: ilkin yardım, təcili və təxirəsalınmaz yardım, xəstəxanaya yerləşdirməyi; çox yayılmış xəstəliklərin patogenetik terapiya prinsiplərini əsaslandırmağı;<br>- tibbi təxliyə mərhələlərində lazımi həcmdə və effektli şəkildə təxirəsalınmaz yardım tədbirləri göstərməyi, dinc və müharibə dövrlərində terapevtik profilli xəstələrin erkən diaqnostikasını, müalicə və profilaktikasını zəruri həcmdə və kefiyyətlə aparmağı, kütləvi qırğın, odlu və digər silahların tətbiqi nəticəsində meydana çıxan, eləcə də xidmət şəraitinin zərərli faktorlarının təsirindən törənə biləcək xəstəliklərin vaxtında profilaktikasını, erkən diaqnostikası və müalicəsini aparmağı;<br>- LOR orqanlarının endoskopik müayinə metodlarını, LOR-orqanlarının funksiyasının yoxlanmasını, eşitmənin müasir yoxlama metodlarını (tonal, nitq audiometriyası, otoakustik emissiya, BERA), protezləşdirilməsini;<br>- venapunksiya və ya venaseksiya ilə qanın və qanəvəzedicilərinin köçürülməsini, döş qəfəsi, qarın boşluğunu, sidik kisəsini punksiya etmək, cərrahi xəstəliklərə funksional müayinə metodlarını tətbiq etməyi, səthi irinliklərdə (abses, furunkul, karbunkul, hidradenit, dolamalarda) kəsiklərin aparılmasını yaradan qanaxmaları dayandırmağı, yaraların ilkin cərrahi işlənməsini, əməliyyatdan sonrakı dövrdə tikişlərin çıxarılmasını;<br>- uşaqlar, yeniyetmələr, yaşlı şəxslərdə yoluxucu xəstəliklərin klinik müayinəsini, ilkin diaqnozun qoyulmasını, xəstəliklərin müayinə planının tərtibini, laborator müayinə nəticələrinin (klinik, bakterioloji, seroloji və s.) qiymətləndirilməsini, təxirəsalınmaz vəziyyətlər, ağırlaşmaların baş verməsinin müəyyənləşdirilməsini, hospitalizasiyaya qədərki və hospitalizasiya mərhələsində lazimi tibbi yardım göstərilməsini, müxtəlif müayinələrin aparılması üçün xəstədən materialların (qan, sidik, qusuntu kütləsi və s.) götürülməsinin həyata keçirilməsini, dəri-allergik sınaqların aparılmasını, qalın damla və qan yaxmasının hazırlanmasını;<br>- hamiləlik müddətini təyin etməyi, doğuş güman edilən müddəti təyin etməyi, doğuş zamanı daxili bimanual müayinənin aparmağı, ginekoloji güzgülərlə müayinəni, daxili bimanual müayinəni;<br>- fizioloji hamiləliyi aparmağı;<br>- hamilələrə tibbi yardım göstərməyi;<br>- ünsiyyət və müşahidə zamanı pasientin davranış xüsusiyyətlərinin, xarici qörünüşünün, ifadələrinin təhlili, farmakolojı terapiya fonunda keçiriləcək reabilitasiyanı;<br>- xəstələrin dərman anamnezinin dəqiq toplanmasını, xəstəliklərin düzgün müalicə üsullarının seçilməsini və digər patoloji proseslərin effektiv farmakoterapiyasını saxlamaqla yanaşı ağırlaşmaların sayını imkan daxilində minimuma endirməyi;<br>- vərəmin hər hansı bir klinik formasına diaqnozun qoyulmasını subyektiv və obyektiv, klinik, rentgenoloji, laborator müayinələr əsasında təyin etməyi, vərəm mikobakteriyalarının dərmanlara qarşı rezistentliyinin növlərini, onları müalicə sxemində nəzərə almağı; | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | - stasionar və poliklinikalarda müalicəyə və ikincili profilaktikaya ehtiyacı olanlara, xəstəliklər zamanı kompleks müalicə tədbirlərində təbii fiziki amillərdən istifadə etməyi, istifadə olunan fiziki amillərin klinik effektivliyini qiymətləndirməyi, xəstələri sanatoriya-kurort müalicəsinə seçməyi və lazımı tibbi sənədlərin doldurmağı, funksional sınaqlar aparmaq və bunları qiymətləndirməyi, fiziki reabilitasiya vasitələrini xəstələrə təyin etməyi;<br>- hadisə yerinə baxış keçirməyi və hadisə yerinin müayinə protokolunun tərtibində müstəntiqə kömək göstərməyi, məhkəmə təbabətində qəbul olunmuş sxemə uyğun olaraq mexaniki xəsarətləri təsvir etməyi, meyitin məhkəmə-tibbi müayinəsinin texnikasını, laborator müayinələr aparmaq üçün orqanları və ya onların hissələrini götürməyi, canlı şəxslərin məhkəmə-tibbi müayinəsini aparmağı;<br>- sağlam və xəstə uşaqların ümumi müayinəsini, onların fiziki və sinir-psixi inkişafını qiymətləndirməyi, müayinələr əsasında diaqnoz qoymağı və xəstə uşağın müalicə planı və taktikasını hazırlamağı, müasir metodların tətbiqi və uşaq xəstəliklərinin profilaktikasını, kəskin ürək və tənəffüs çatışmazlığı, allergik reaksiya hallarında təxirəsalınmaz yardım göstərməyi, sağlam və xəstə uşaqlara qulluğun və dispanser müşahidənin təşkili və həyata keçirilməsini, müalicəvi bədən tərbiyəsini təyin və tətbiq etməyi;<br>- ölüm haqqında tibbi şəhadətnaməni doldurmağı;<br>- bakterioloji zədələnmə ocaqlarında əks-epidemik tədbirlər təşkil etməyi;<br>- fövqəladə hallarda əhalinin mühafizəsini və köçürülməsini, xəsarət almış şəxslərə ilk tibbi yardım, təcili tibbi sanitariya və əks-epidemik yardım göstərilməsini təşkil etməyi.<br><br>**yiyələnməlidir:**<br>- histoloji preparatların təhlili, mikroskopla işləmək bacarığına və elektron mikrofotoşəkil çəkməyə;<br>- sadə tibbi alətlərlə (fonendoskop, şpatel, nevroloji çəkic, skalper, pinset, zond, genişləndirici, sıxıcı və s.) işləmək bacarığına;<br>- bioloji maddələrin biokimyəvi tədqiqatlarının nəticəsinə əsasən, ilkin diaqnoz qoymaq bacarığına;<br>- uşaqlar, yeniyetmələr və yaşlı şəxslərdə ilkin immunoloji diaqnozun qoyulması və sonradan həkim allerqoloq-immunoloqa göndərilməsi alqoritminə;<br>- immun pozulmaları olan uşaq, yeniyetmə və yaşlı şəxslərdə təxirəsalınmaz hallar və həyat təhlükəsi olan vəziyyətlər zamanı ilkin tibbi yardımın göstərilməsi üçün əsas diaqnostik və müalicə tədbirlərinə;<br>- xəstəliklərin morfoloji və klinik göstəricilərini müqayisə etmək bacarığına;<br>- insanlarda irsiyyətin öyrənilməsi metodlarına (sitogenetik metod, genealoji metod və s.);<br>- uşaqlar, yeniyetmə və yaşlı şəxslərdə müxtəlif xəstəliklər və patoloji vəziyyətlər zamanı müalicə, reabilitasiya və profilaktika üçün dərman maddələrini təyin etmək bacarığına;<br>- latın dilində klinik əczaçılıq terminlərini və reseptləri oxumaq və yazmaq bacarığına;<br>- təşrihin klinik-anatomik təhlili metodlarına, biopsiya və cərrahi əməliyyat materiallarının tədqiqinə;<br>- tibbi sənədləri düzgün tərtib etmək bacarığına; | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | - ictimai sağlamlığın vəziyyətini qiymətləndirmək bacarığına;<br>- ümumi klinik müayinə metodlarına;<br>- laborator, instrumental və diaqnostika metodlarının nəticələrini düzgün şərh etmək bacarığına;<br>- uşaqlar, yeniyetmə və yaşlı şəxslərdə düzgün klinik diaqnoz qoymaq alqoritminə;<br>- ilkin diaqnoz qoymaq və sonradan xəstəni müvafiq həkim-mütəxəssisə göndərmək alqoritminə;<br>- tibbi statistik göstəricilərin hesablanma metodikasına, səhiyyənin iqtisadi artım dərəcəsini xarakterizə edən göstəricilərn təhlilinə;<br>- uşaqlar, yeniyetmələr və yaşlı şəxslərdə təxirəsalinmaz hallar və həyat təhlükəsi olan vəziyyətlər zamanı ilkin tibbi yardımın göstərilməsi üçün əsas diaqnostik və müalicə tədbirləri görmək bacarığına;<br>- hadisə yerinə baxış keçirən zaman ölümün baş verməsini və müddətini təyin etmək, meyitlərin məhkəmə-tibbi ekspertizası zamanı diaqnozları tərtib etmək və nəticələri əsaslandırmaq, sağlamlığa zərərvurmanın dərəcəsini təyin etmək bacarığına;<br>- fövqəladə hallarda əhalinin mühafizəsinin əsas üsullarına və prinsiplərinə əməl etmək;<br>- ilk tibbi yardımın həyata keçirilməsi qaydalarına əməl etmək. | | | | |
| **TE-B00** | **Təcrübələr və yekun attestasiya**<br>Bu bölümə aid olanların öyrənilməsi nəticəsində təhsil alan aşağıdarıları **bilməlidir:**<br>- kiçik tibb personalının, palata və prosedur tibb bacısının işinin əsas mərhələlərini;<br>- ambulator - poliklinik tibb müəssisələrində həkim işinin əsas mərhələlərini;<br>- terapevtik, cərrahi və mama-ginekoloji profilli xəstəxanalarda həkim işinin əsas mərhələlərini;<br>**bacarmalıdır:**<br>- xəstələrə qulluq etməyi, palata və prosedur tibb bacısının apardığı manipulyasiyaları yerinə yetirməyi;<br>- poliklinika şəraitində əhaliyə müalicə-profilaktik yardım göstərməyi;<br>- xəstəxanaya yerləşdirilməmiş-dən əvvəl xəstələrə təcili və təxirəsalınmaz yardım göstərməyi;<br>- tez-tez təsadüf edilən terapevtik, cərrahi və ginekoloji xəstəliklər zamanı xəstələri müayinə etməyi;<br>- baxış və sorğu məlumatlarını qiymətləndirməyi;<br>- ilkin diaqnoz təyin etməyi;<br>- müayinə planını tərtib etməyi;<br>- müalicə üçün məsləhət verməyi, yaxın və uzaq proqnozlar etməyi;<br>- həkimin rəhbərliyi altında xəstəni müalicə etməyi;<br>- tibbi sənədləri düzgün tərtib etməyi;<br>- fizioloji doğuşun qəbulunda iştirak etməyi, yeni doğulmuşlara ilkin qulluq göstərməyi.<br><br>**yiyələnməlidir:**<br>- xəstələrin yaşı, xəstəliyin xarakteri və ağırlığı nəzərə alınmaqla onlara qulluq səriştələrinə;<br>- xəstələrə təcili və təxirəsalınmaz yardım göstərmək vərdişlərinə. | **24** | **TE-B01**<br>Təcrübələr<br><br>**TE-B02**<br>Yekun dövlət attestasiyası | 15<br><br><br>9 | **ÜK-6**<br>**ÜK-13**<br>**ÜK-14**<br>**PK-1**<br>**PK-3**<br>**PK-7**<br>**PK-13**<br>**PK-14**<br>**PK-18**<br>**PK-19** |
| | **Kreditlərin ümumi cəmi:** | **360** | | | |

**Bütün bölümlərdə seçmə fənlər müvafiq səriştələrə (kompetensiyalara) uyğun ali təhsil müəssisələri tərəfindən müəyyənləşdirilir.*

**3.3. 070101 – Müalicə işi** ixtisası üzrə tibb təhsili proqramının yerinə yetirilməsinin müddəti:

Tibb təhsili proqramını mənimsəmək üçün ayrılan ümumi həftələr - 302
Nəzəri təlim, o cümlədən, təcrübələr (10 həftə) üçün ayrılan həftələr - 234
Tətillər üçün ayrılan həftələr - 62
Yekun attestasiyaya ayrılan həftələr - 6

## 4. Maddi-texniki, tədris bazası və kadr potensialı

4.1. Ali təhsil müəssisəsinin **070101 – Müalicə işi** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsil alanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

4.2. Fənlərin tədrisi, bir qayda olaraq, ali təhsil müəssisələrinin elmi dərəcəsi və ya elmi adı olan professor-müəllim heyəti tərəfindən aparılır. Bu fəaliyyətə həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslər də cəlb edilə bilər.

## 5. Tədris prosesinin forma və metodları

5.1. Tibb təhsili hazırlığında mühazirə, məşğələ (laboratoriya), seminar, məsləhət, sərbəst iş, təcrübə və s. formalarda həyata keçirilir..

5.2. Tibb təhsili hazırlığı üzrə tədris prosesində şifahi şərh, müsahibə, interaktiv təlim, müstəqil iş, diskussiya, dəyirmi masa, illüstrasiya, tədqiqatçılıq, laboratoriya və praktik iş və digər metodlardan istifadə edilə bilər.

5.3. **070101 – Müalicə işi** ixtisası üzrə tibb təhsili hazırlığında istehsalat və pedaqoji təcrübələr nəzərdə tutulur (təcrübələrin məqsəd və vəzifələri ixtisasdan asılı olaraq müəyyənləşdirilir). Təcrübələr növündən asılı olaraq, müvafiq idarə və təşkilatlarda, məktəblərdə və s. keçirilə bilər.

## 6. Yekun dövlət attestasiyasına qoyulan tələblər və qiymətləndirmə

6.1. Tibb təhsili ixtisasları üzrə təhsil proqramları təhsil alanların dövlət attestasiyası ilə yekunlaşır.

6.2. Tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalarda) müvəffəqiyyətlə keçmiş tələbələr yekun attestasiyaya buraxılırlar.

6.3. Yekun attestasiya bütün təhsil alanlar üçün məcburidir, onun hazırlanmasına və təşkilinə ayrılan müddət 6 həftədir.

6.4. Yekun attestasiya ixtisas üzrə fənlərarası buraxılış yekun dövlət imtahanından ibarətdir.

6.5. Tibb təhsili üzrə tələbələrin topladığı kreditlərin sayı 360 olmalıdır. İxtisaslar üzrə təhsil proqramlarında nəzərdə tutulmuş kreditləri toplayan tələbə həmin proqramı mənimsəmiş hesab edilir. Ali təhsil müəssisələrində təhsil proqramı üzrə tədris planını tam yerinə yetirmiş şəxslərə yekun Dövlət Attestasiya Komissiyasının qərarı əsasında "həkim" ali peşə-ixtisas dərəcəsi verilir.

6.6. Yekun attestasiyanın təşkili və keçirilməsi qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini

_______________ Yaqub Piriyev

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elm və ali təhsil şöbəsinin müdiri

_______________ Gültəkin Hüseynova

Səhiyyə, rifahı və xidmət ixtisasları qrupu üzrə Dövlət Təhsil Standartlarını hazırlayan işçi qrupun sədri

_______________ Nəsimi Qasımov

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodiki Şurasının «Tibb və əczaçılıq elmləri» bölməsinin sədri

_______________ Sabir Əliyev